*Aynur RZAYEVA*
*AMEA-nın Folklor İnstitutu*

# AZƏRBAYCAN NƏSRİNDƏ FOLKLORİZM

Azərbaycan ədəbiyyatının mühüm tərkib hissələrindən olan nəsrimizin zəngin ədəbi ənənələri vardır. Bu ənənələr ədəbi inkişafın müxtəlif dövrlərində zənginləşib inkişaf etmiş, xalqın ənənəvi və mədəni həyatını, estetik dəyərlərini və qabaqcıl görüşlərini daim özündə əks etdirmişdir. Nəsrimizin təbii ki, müəyyən yaranma dövrü, inkişaf mərhələsi və xüsusiyyətləri də olmuşdur. Onun yaranma zəmini isə şübhəsiz ki, xalq nəsri ənənələri üzərində meydana çıxmış, zaman keçdikcə həm mövzu, həm də məzmun etibarı ilə xalq nəsrindən qopub yazılı üsluba düşmüşdür. «Qədim türk ədəbiyyatında... nəsrin ilk nümunələri xeyli gec – minilliyin ortalarından sonra meydana çıxır» (1, s. 24). Yazılı ədəbiyyatın, o cümlədən nəsrin erkən «qaynaqları uzun müddət elmə məlum olmadığı kimi, aşkarlandıqdan sonra yazılı ədəbi abidələr kimi dəyərləndirilmiş, onların yazıya qədərki taleyi diqqət önünə çəkilməmişdir. Məlumdur ki, qədim türk şeri kimi, nəsri də ilk öncə şifahi yaradıcılıq mərhələsi keçmiş, onu yaradan tayfaların ağız ədəbiyyatının şifahi düşüncəsi kimi bir tale yaşamış, müəyyən mərasim və hadisələrlə bağlı, daş kitabələrə həkk edilmişdir» (2, s. 280-281).

Milli təhkiyənin geniş imkanları yazılı nəsrdə hələ özünün formalaşdığı ilkin mərhələdə nümayiş etdirmiş, onun müxtəsər mövzu və məzmun çevrəsini özündə qoruyub saxlaya bilmişdir. Təəssüf ki, daş kitabələr üzərində əks olunan ilk yazılı nəsrimiz tam halda toplanıb çap edilmədiyi kimi, onlar eyni zamanda ümumtürk yazılı nəsrinin ilk ölçü və qəliblərini müəyyən edən yazılı mətnlər kimi hələ də kifayət qədər öyrənilməmişdir. «Qədim türk nəsrinin şah əsərləri Göytürk imperiyasının son dövrlərində – VII əsrin sonu VIII əsrin ilk onilliklərində Orxon çayı hövzəsində «bəngü-taşlara»a («ədəbi daşlar») həkk edilmiş kitabələrdir. Qədim türk (run) əlifbası ilə yazılmış kitabələrdən tarix etibarı ilə birincisi Ongin (VII əsrin 80-ci illərinin sonu, 90-cı illərin əvvəli), ikincisi Tonikuk (VIII əsrin ilk onilliyinin sonu, ikinci onilliyin əvvəlləri), üçüncüsü Kültigin, dördüncüsü isə «Bilgə xagan»dır» (1, s. 241).

Yazılı nəsrin ilk nümunələrindən bizi zaman etibarı ilə uzun bir dövr ayırsa da bu nəsrin təhkiyə prinsiplərinin sonradan pozulub dağıldığını, yaxud sökülüb parçalandığını söyləmək olmaz. Yazılı nəsr üslubu uzun müddət şifahi üslubla yanaşı, müvazi şəkildə fəaliyyətdə olmuşdur. Ancaq türklər içərisində yazı mədəniyyətinin ləng inkişafı şifahi üslubun artan sürətlə inkişafını təmin etmişdir. Bu prosesə ozan və aşıq ifaçılıq institutlarının əsaslı təkanı peşəkar təhkiyəçiliyi sürətləndirmişdir. V. Y.Propp yazır ki, «professional nağılçılıq güclü epik təfəkkürə, yaradıcılıq ənənələrinə, süjet, motiv və obraz zənginliyi qaynaqlarına söykənməklə tarixi faktı bədii həqiqət şəkilində təqdim etmək iqtidarına malik oldu. Belə yaradıcılıq qaynağında epik təfəkkürün hüdudları daha da genişləndi, aydınlaşdı, tarixi gerçəklik müxtəlif şəkillərdə, və bədii

formalarda yarandı. Epik təfəkkürün bu ifadə formaları yazılı nəsr nümunələrində daha mükəmməl şəkildə üzə çıxdı» (3, s. 43).

Azərbaycanda bu proses ləng inkişaf etdi, «yazılı nəsrin bütün təhkiyə tələbləri əsasında yaranıb meydana çıxması əsasən XIX əsrdə M.F.Axundovun yaradıcılığında üzə çıxdı. Bu, nəsrin inkişafında mükəmməlləşmə prosesi ilə bağlı olan ikincisi mərhələ idi. Birinci mərhələ isə daha əvvəlki dövrlərdə, anadilli ədəbiyyatın başlanğıcında özünü göstərib. M.Füzuli yaradıcılığı ilə tamlanmışdı» (4, s. 43). Ötən dövrlərdəki – qədim türk nəsrindən XVI yüzilliyə, eləcə də ondan sonrakı tarixi kəsimdə qədim yazılı nəsrdən başlayan boşluğu isə xalq nəsrinin tarixi gerçəklikləri özündə bu və ya digər şəkildə əks etdirən mif, əfsanə, rəvayət, lətifə və nağıllar tutmuşdu (2, s. 289-333).

B.e. XVII-XIX əsrlərində bədii nəsri şifahi şəkildə yaranan «xalq romanları» bəzədi. Onların bədii təhkiyədə şifahi və yazılı nümunələri yarandı (5, s. 181-230). Göründüyü kimi, Azərbaycan nəsri öz kökü və qaynağları etibarı ilə qədim türk şifahi və yazılı ənənələri ilə sıx bağlıdır. Şifahi nəsrin folklor qaynaqları özündə elə güclü və qüdrətli xalq həyatı həqiqətlərini, incə və kəskin yumor, şirin təhkiyəçilik ənənəsi, obrazlı və mənalı deyim tərzi, müdrik ifadə formaları yaratmışdır ki, yazılı nəsr bütün sonrakı dövr yaradıcılıq prosesində onlardan sıx şəkildə bəhrələnmişdir. Bu zəngin və maraqlı prosesi diqqətlə izləyən akademik M.Arif yazırdı ki, «Azərbaycan nəsrinin bəhrələndiyi ən mühüm qaynaqlardan biri xalq ədəbiyyatıdır. O yazırdı: «...Azərbaycan xalqının ədəbi ənənələrinin inkişafı da özünə məxsus bir varislik yolunun aparıcısı kimi diqqəti cəlb edir. Onun başlıca mahiyyətinin dərinliyində isə zəngin folklor ənənələri aydın nəzərə çarpmaqdadır» (6, s. 23). Deməк folklor qaynaqları üzərində yaranıb inkişaf edən Azərbaycan nəsri folklorizmdən xali ola bilməz. Bu məzmun xalq nəsrinin məzmun və mahiyyətində bir neçə formada özünü göstərməkdədir. Birincisi şifahi xalq üslubu yazılı nəsr üslubunun yaranması və formalaşmasında mühüm nüfuzedici funksiyalara malik olmuşdur. İkincisi, epik təfəkkürün yaranmasında xalq nəsri ənənələri xüsusi yer tutmuş, bu özündən sonrakı dövrdə yaranıb meydana çıxan yeni təhkiyə üslubuna məharətlə ötürə bilmişdir. Dördüncüsü, folklorizmi yaradan, gücləndirən və bütün yazılı nəsri əhatə edən çoxsaylı folklor elementləri nəsrimizin məzmununa və mahiyyətinə elə məharətlə hopmuşdur ki, onu bütün çalarlarda C.Məmmədquluzadənin, N.Nərimanovun, Ə.Haqverdiyevin yaradıcılığında, bu ədiblərin nəsrinin görünən məzmununda və görünməyən alt qatında əks olundu. Bu isə nəsrin folklor qaynaqları ilə tarixi və varislik ənənələri ilə bağlı idi.

Azərbaycan nəsrində folklorizmin əksi təbii ki, heç də bütün dövrlərdə eyni səviyyədə qorunub saxlanmamış, yaxud əks oluna bilməmişdir.

Əgər M.F.Axundovun dram əsərlərində və «Kəmalüddövlə məktublarının»da folklorizm elementləri birincidə görünən, ikincidə isə görünməyən qatdadırsa sonrakı dövrdə bu, enən və yüksələn xətlərdə özünü göstərir. Məzmun rəngarəngliyinə, üslub müxtəlifliyinə parçalanır N.Nərimanovun nəsrində

bəzən açıq, bəzən də üstüörtülü məzmunda nəzərə çarpırsa C.Məmmədquluzadənin nəsrində yeni görüntülər silsiləsi yaradır. «Molla Nəsrəddin» ədəbi məcmuəsində ifadə formasını dəyişir. Bu məcmuədə, folklorizmin müxtəlif çalarlarından istifadə isə bütövlükdə XX əsr nəsrinə yeni qəliblər, ölçülər gətirir. Folklor ənənələrinin bu şəkildə müstəqil vahidlərə bölünüb parçalanma spesifikası sonrakı illərdə meydana çıxan nəsr əsərlərində folklorizmi yeni mərhələyə yüksəldir. Folklor vahidlərindən əsərlərin adında, obrazın nitqində və xarakterində, əsərdə müəllifin dilində, epiqraf yerində və s. şəkildə istifadə edilir. Bu ənənələr nəsrimizdə təxminən 30-cu illərə qədər davam edir.

30-cu illərin ikinci yarısından başlayaraq Azərbaycan nəsrində sovet həyatı gerçəkliklərinin tərənnümünün önə çıxması ilə bağlı folklorizm elementləri görünən qatda azalmağa başlayır (7). Daha doğrusu, bir sıra mühüm folklorizm elementləri azalmaqla yanaşı, eyni zamanda görünməz laya, - mətnaltı məzmuna keçir. Bununla belə, folklorizm nəsrimizdən tam yox olub sıradan çıxmır. Xalq qəhrəmanları, qaçaq hərəkatı, milli-mənəvi dəyərlər, mərasim və rituallarla bağlı məzmun nəsrdə özünü göstərməyə başlayır. Y.V.Çəmənzəminlinin «Qızlar bulağı», S.Rəhimovun «Aynalı», «Qaçaq Nəbi» əsərlərində folklor məzmunu bir qədər standart qəliblərdə təkrarlanmağa başlayır. Bu, əslində Azərbaycan nəsrində folklorizm hadisəsinin yeni şəkildə, bir qədər geniş ölçüdə davamı idi.

Azərbaycan nəsri artıq bu dövrdə mövzu qıtlığı çəkdiyi bir zamanda, yaxud yazıçı qələmi yeni sosialist gerçəkliklərini qələmə almağa hələ püxtələşmədiyi tarixi məqamda xalq ədəbiyyatına söykənməyin bir yolu idi.

Azərbaycan nəsrinin müxtəlif dövr və mərhələlərində folklorizmin onun ümumi məzmununda fəal mövqeyə malik olmasına baxmayaraq müharibə dövrü və müharibədən sonrakı illərdə bu mövqe getdikcə zəifləməyə, bir sıra hallarda isə epizodik səciyyə daşımağa başladı. Bu, şübhəsiz ki, nəsrimizə yeni mövzuların, - kollektivləşmə, mədəni inqilab, sonrakı illərdə isə müharibə mövzusunun daxil olması ilə bağlı idi.

Folklorizmin bədii nəsrimizdə görünməz qata keçməsi təxminən iki onilliyi əhatə etdi. Müharibədən sonrakı dövrdə bədii nəsrimizdə folklor elementlərinin yeni görünüşü diqqəti cəlb edən şəkildə özünü göstərməyə başladı. Bu görüntülər M.İbrahimovun, İ.Əfəndiyevin, M.S.Ordubadinin, İ.Şıxlının və başqa ədiblərin yaradıcılığında özünü göstərməyə başladı. 60-cı illərin başlanğıcından isə nəsrimizdə milli dəyərlərə yeni bir qayıdış meyli özünü göstərdi. Sovetlər dövrünün tələblərindən fərqli olaraq, nəsrə yeni məzmun gəlməyə başladı. İnsanın daxili narahatlığı, milli məninin taleyi, keçmişə münasibət, insanın azad durumu, psixoloji düşüncəsi, fərdi və ümumi baxışları nəsrdə görünməyə başladı. Həm də bütün bunlar bir ənənə silsiləsi formalaşdırdı. Azərbaycan nəsrinə yeni bir məzmun gəlməyə başladı. Həm də dərin folklorizmlə bağlı bu dərin məzmun xoş bir ab-hava kimi könülləri oxşamağa başladı. Bu ənənə nəsrin bir sıra görkəmli ədiblərinin – İ.Əfəndiyevin, İ.Şıxlının, S.Əhmədovun, Ə.Mustafayevin yaradıcılığında sistemsiz halda nəzərə çarpsa da

yeni məzmunun yeni daşıyıcıları folklorizmi bütün çalarlarında nəsrə gətirməyə həvəsli qüvvələr yetişməyə başladı. Bunların sırasında öndə gedənlər, içərisində Anarın, Əkrəm Əylislinin və başqa gənc ədəbi qüvvələrin təşəbbüskarlığı diqqət çəkən idi. Ancaq foklorizm ənənələrini gözə çarpan və gözə çarpmayan qəliblərdə nəsrə gətirən ilk hekayələrdən başlayaraq, ən böyük romanlarından biri olan «Mahmud və Mərhəm»ə qədər milli-mənəvi və əxlaqi dəyərləri önə çəkən ədiblərdən ən məhsuldarı Elçin oldu.

Elçinin nəsrində folklorizmin yeni qayıdış elementləri tarixi-xronoloji ardıcıllığa əsaslanır. Oxucuya elə gəlir ki, ənənəvi-trafaret sovet gerçəkliyi mövzularının bədii nəsrə gəlməsi ilə bağlı Azərbaycan nəsrindən yoxa çıxan, gözə görünməz olan folklorizm vahidlərini M.Cəlal üslubuna uyğun bir şəkildə nəsrdə bərpa etməyə çalışan Elçin bu işi çox ehtiyatla ilk hekayələrindən başlayaraq sonrakı dövrdə qələmə aldığı nəsr əsərlərində bir növ yenidən bərpa edir. Azərbaycan nəsrində folklorizm görüntülərinə yenidən qayıdır, əsərlərini onunla zənginləşdirməklə oxucu qəlbinə yol tapır.

Bu isə, təbii ki, Azərbaycan nəsrində folklorizmin müxtəlif dövr və mərhələlərində ifadə və əksi formalarını açmağa, nəsrimizin folklor qaynaqları ilə bağlılığı, onun bəşəri və qlobal dəyərlərini araşdırmağa imkan verir.

Folklorun bədii ədəbiyyatda təzahür formaları geniş və rəngarəngdir. Bu, təkcə hansısa bir milli ədəbiyyat üçünənənəvi olmayıb, dünya ədəbiyyatının mühüm problemlərindəndir. Dünya ədəbiyyatının o böyük sənətkarları xalqların intəhasız sevgisini qazanıblar ki, onlar öz yaradıcılıqlarında, ən kiçik həyat detalının təsvirindən tutmuş, ən böyük bədii faktın təsvirində milli həyat materialına, folklor örnəklərinə, estetik düşüncənin kövrək hisslərinə söykənirlər. Bayron, H.Heyne, V.Şekspir, L.Tolstoy və b. böyük yaradıcılığı ona görə yüzilliklər ərzində oxucu sevgisinin əhatəsindədir ki, onların təsviri folklorizmdən bəhrələnən lirizmlə vəhdətdədir.

Azərbaycan nəsrində folklorizm isə demək olar ki, bütün genişliyi və çoxcəhətliliyi ilə hələ demək olar ki, tədqiqatlara cəlb edilməmişdir. Yuxarıda qeyd edildiyi kimi XX əsr Azərbaycan nəsrinin ayrı-ayrı ədəbi simalarının folklor və folklor məsələləri ilə bağlılığı pərakəndə halda araşdırmala ra cəlb edilsə də istər nəsrin folklor qaynaqları, istərsə də XIX və ya XX əsr nəsrimiz folklorizm kontekstində təhlil edilməmişdir. Bu istiqamətə son vaxtlarda yaranan araşdırmalar içərisində X.Manaflının (7, s. 21-240) tədqiqatı öz elmi əhatəsi və nəzəri dəyəri etibarı ilə diqqəti cəlb edir. Tədqiqat işində ötən əsrin 60-70-ci illərində Azərbaycan nəsrində folklorizm problemi yazıçı Anarın, Elçinin və Əmir Mustafayevin yaradıcılığı əsasında ümumi şəkildə nəzərdən keçirilir. Nəsrin folklorizminin mahiyyətinin açılmasında tədqiqatçının dəyərli mülahizələri, ümumilikdə isə Azərbaycan nəsrində folklorizm məsələlərinə ümumi bir baxış ifadə edilir.

Azərbaycan nəsrində folklorizmin ifadə səviyyəsinə eyni metodoloji baxış prizmasından yanaşanda biri-birindən cəhətlər üzə çıxır. Ancaq onları nəsrin ümumi məzmununda folklorizmin əksi səviyyəsində nəzərdən keçir-

dikdə maraqlı bir mənzərənin şahidi oluruq. Belə ki, nəsrin təşəkkül və müəyyən inkişaf mərhələsində etnoloji folklorizm təzahür edir.

Folklor ənənələrindən, etnosun tarixi taleyi ilə bağlı həyatfaktorlarının bədii nəsrdə geniş lövhələrdəki əksində ənənəvi folklorizm başlıca formalarda özünü göstərir. O ki, qaldı intellektual folklorizmə onun intellektin yüksəlişi, mətnaltı məzmunda qorunub saxlanması və nəsrin bütün inkişaf mərhələləri üçün səciyyəvi təbiətə malik olması şəksizdir. İntellektual folklorizmin iki əvvəlki formadan fərqli nəsrin inkişafının bütün mərhələləri üçün ənənəvi olmasıdır.

Təbii ki, folklorizmin bütün bu təsnifi eyni zamanda şərtidir. Yeni nəsrin müxtəlif mərhələlərində gedib qayıdan, estetik düşüncənin görünən və görünməyən qatlarında, mətnaltı düşüncə, yaxud intellektin dünyagörüşü və əxlaqında müxtəlif görüntürlərdə əks oluna billəndir. Məsələn, əgər etnoloji folklorizmin əgər ən kamil modern forması C.Məmmədquluzadənin nəsrində özünü göstərirsə, eyni görüntü bir neçə onillikdən sonra mahiyyətcə oxşar, məzmunca fərqli şəkildə 60-70-ci illər nəsrində özünü təkrarlamaq imkanına qoruyub saxlayır. Yaxud, N.Nərimanov nəsri üçün səciyyəvi olan, dövrünün mühüm intellekt vahidlər sistemi – folklordan gələn («Əsli-Kərəm»də nəzərə çarpan) intellekt folklorizm «Bahadır və Sona»da bütün gerçəkliyi ilə təzahür edir. Amma bədii düşüncədə o da daşlaşıb qalmır, bir necə onillikdən sonra yerə yeni dövr nəsrində təkrarlanır.

Folklorizm tiplərinin müxtəlif zaman kəsimində təkrarlanması heç də fərqli səciyyə daşımır. Yəni bir və yaxud bir neçə yazıçının yaradıcılığında deyil, folklorizmin ümumi yüksəlişi üçün münbit şəraitin yarandığı zaman kəsimində meydana çıxan nəsr nümunələrində səciyyəvi faktor kimi nəzərə çarpır. Şübhəsiz ki, folklorizmin nəsrdə dövrlərarası görünüş formalarıi özünəməxsus fərdiliklərdən də xali deyildir.

Azərbaycan nəsrində etnoloji folklorizmin ifadə formasının özünəməxsusluqları onun fərdi səciyyəsini müəyyənləşdirir. Həmin görüntüdə əslində zahiri folklor detalı yoxdur. Hadisədə və ya təhkiyədə folklor süjeti, yaxud folklor paremik vahidləri iştirak etmir. Ancaq təsvir edilən hadisə öz folklorizmi ilə fərqlənir. XX əsr nəsri üçün ənənəvi olan bu cəhət C.Məmmədquluzadə və Ə.Harverdiyevin yaradıcılığında daha qabarıq şəkildə özünü biruzə verir. S.Rüstəmxanlı C.Məmmədquluzadə nəsrindəki folklorizmdən istifadə formalarından bəhs edərkən yazır ki, C.Məmmədquluzadənin nəsrindəki folklorizm adi və sadə ifadə formasına malikdir. İlk baxışda kiçik bir hekayə məzmunu daşıyan hadisəni ədib elə üslubda təqdim edir ki, hekayəni oxuduqdan sonra onun böyük ümumiləşdirmə gücünə malik olduğunu və ümumazərbaycan kəndində mövcud olan əhvali-ruhiyyəni bütöv şəkildə səciyyəvi detallarda ifadə etdiyi görünür. Şübhəsiz ki, yazıçının xalq dili və məişətinə, xalqın psixologiyasına və Azərbaycan kəndindəki durumuna yaxından bələd olması ilə də yaxından bağlıdır (8, s.26). Tədqiqatçı mülahizələrində yazıçının xalq həyatına, məişətinə və dilinə yaxın olmasının onun folklor qaynaqları ilə sıx bağlı olduğunu göstərməkdə haqdır. Diqqət yetirdikdə aydın görmək mümkündür ki, ədibin «Usta Zeynal», «Poçt qutusu», «Quzu», «Kişmiş oyunu» və başqa hekayələrində dərin bir folklorizm

qaynağı ilə bağlılıq var. Bu hekayələrin hər birinə ayrıca diqqət yetirdikdə görmək olur ki, yazıçı adi həyat faktını nəsrə gətirir. Olmuş hər hansı bir hadisəni qələmə alır. Təsvir olunan hadisələr – hekayələr arasında etnosun həyatı üçün – XIX-XX əsr Azərbaycan kəndi üçün ənənəvi olan həyat hadisələri mövcuddur. Elə xalq həyatının bu ümumiliyindən doğan əhval-ruhiyyə etnoloji folklorizmin əsas mahiyyətini təşkil edir. Bu həyat üçün səciyyəvi olan mühitin məcmunda isə folklorizm detalları cəmləşmişdir. Onlar milli həyat ənənəsindən məharətlə nəsrə keçir, onu dövrün və mühitin psixologiyası ilə cilalayır. «Usta Zeynal» hekayəsi bu cəhətdən səciyyəvidir. Ədib ev təmir edən bir ustanın bədii obrazını nəsrə gətirməklə onu bütün psixoloji durumu ilə canlandırır. Bununla cəmiyyət həyatındakı ümumi mənzərənin canlı lövhəsini yaradır. Bu təsvir prosesində folklor detallarını yenidən işləyir, nəsr dilinə salır, onların bir qismini müəyyən məqam daxilində folklor detalları ilə qarşılaşdırır, və hadisənin məzmununu folklor kontekstində ümumiləşdirir. Yazıçı dövrün çarəsizliyi və amansızlığı ilə bağlı olduğunu oxucusuna açıq bədii boyalarda anlada bilir. Bunlar **pozitiv folklorizm** detallarıdır, cəmiyyəti inkişafa, maarifə çağırandır. Ədalətsizliklərə, zülmə, işgəncə və zorakılığa qarşı insanları ayıq olmağa çağırandır. Bu tip folklorizm detalları oxucuya ümid verir ki, Məmmədhəsən əmilərin, Zeynəblərin əzab çəkdiyi cəmiyyət özü qüsurludur, o getdikcə təmizlənib düzələ, dəyişə bilərdir. Elə bununa görə də pozitiv folklorizmdə irəliyə bir ümid, sabahkı gündə bir nicata, işığa, avamlığın, geriliyin sona yetəcəyinə dərin bir inam var. Bu baxımdan M.Cəlil nəsri XX əsr Azərbaycan nəsrində sabaha ümidli baxışın, pessimist düşüncənin müvətilinə çağırış güclüdür. Burada eyni zamanda bir zaman meyarı da diqqətçəkəndir. Yəni, zamanın Azərbaycan kəndinin bir nizamını tarazlayağı ümudi M.Cəlilin nəsrindən süzülüb oxucuya – cəmiyyətə açmaqdadır. Bu ümid dolu ideyalar maarifçilik və demokratik dəyərlərlə zəngin olub cəmiyyətdə yeni baxışların yaranması üçün çox dəyərlidir. Əgər pozitiv folklorizm M.Cəlil yaradıcılığındakı maarifçi ideyaların xalq arasında yayılmasında mühüm rol oynadısa, **neqativ folklorizm** detallarının nəsrimizdə istifadəsi demokratik baxışların nəsrə gəlməsinə və xalq içərisində yayılmasında mühüm rol oynadı. İlk öncə diqqət yetirək ki, gözək neqativ folklorizmin başlıca mahiyyəti nədir və o, hansı görüşləri əhatə edir. Neqativ folklorizm bədii nəsrdə neqativ düşüncəni bəzəyən və xalq qaynaqlarından süzülüb gələn detal və ya detallar silsiləsidir (10, s. 21). Ondan istifadə əsasən mənfi personajların qüdrətli bədii obrazının, portretinin, kəskin və ziddiyyətli xarakterinin təsvirində istifadə edilir (10, s. 22). Yazıçı təhkiyəsində neqativ folklorizm həm də üsyankar, ifşaedici xarakterə malikdir. O, bütün əksliklərə, təzadları aparıcı pozulmuş əxlaq normalarına qarşıdır. Neqativ folklorizmdə eyni zamanda zülmə, zorakılığa güclü etiraz var. bu qeyri-pozitiv əxlaq qaydalarının dəyişdirilməsi, sındırılma zərurəti elə məzmununda, yazıçı mövqeyində özünü əks etdirir.

Bizə belə gəlir ki, Azərbaycan nəsrinin formalaşmasına təsir göstərən birinci mühüm dalğa 20-30-cu illərdə özünü göstərmiş və güclü folklorizmlə əlamətdar olmuşdur. Bu mərhələdə folklor düşüncəsi mətnaltı və mətnüstü formalarda, etnoloji və ənənəvi formalarda özünü göstərmişdir. Əsrin 20-30-cu

illərində nəzərə çarpan bu ənənə geniş şəkildə Azərbaycan nəsrində özünü göstərmiş və bir sıra nəsr əsərlərinin meydana gəlməsinə səbəb olmuşdur. Bu dalğa eyni zamanda tarixi romanın formalaşmasına həlledici təsir göstərmişdir.

XX əsrin 30-cu illərində milli nəsrdə və romançılıqda yeni bir meyl özünü göstərməyə başlamışdır. Bu, xalq ədəbiyyatı süjetlərinin bütün məlum mətnlərinə geniş şəkildə müraciətlə bağlı idi. Həm də bu meyl getdiklə güclənməkdə, xalq qəhrəmanlarının həyatının nəsrdə, xüsusilə roman yaradıcılığında əks olunması ilə bağlı meydana çıxmaqda idi. Bu isə öz kökü etibarı ilə rus nəsri ilə bağlı idi. Bu ənənə rus nəsrində mövcud idi. A.A.Bestujev-Marlinskinin «Molla Nur», L.Tolstoyun «Hacı Murad» əsərlərinin mövzusu xalq qəhrəmanlarının həyatından götürülmüşdü. A.A.Bestujev-Marlinski xalq qəhrəmanı Molla Nurun həyatı əsasında yazdığı romanda Molla Nurun azadlıq uğrunda apardığı mübarizəni, xalqının milli-mənəvi və əxlaqi dəyərlərini necə böyük əzmlə qoruyub hifs etməsini əsərinin başlıca mövzusu seçmişdi.

30-cu illərdə nəsrə gələn xalq qəhrəmanlarının həyatı mövzularında yazılmış əsərlərdəki folklorizm, sonrakı dövr nəsr yaradıcılığında bir növ sönməyə başladı. Sosialist həyatının tərənnümü mövzusunda yaranan nəsr nümunələrində milli dəyər arxa plana keçdi. Sosialist ideyalarının tərənnümü milli dəyərləri üstələdi. Yalnız müharibə və müharibədən sonrakı dövrün nəsrində folklorizm işartıları yenidən görünməyə başladı. Bütövlükdə bu dövr nəsrimiz bir sıra fərdi və fərqli xüsusiyyətləri ilə seçilməkdədir.

## ƏDƏBİYYAT


1. Arif M. «Gümüşü, narıncı...». «Ədəbiyyat və incəsənət» qəzeti, 13 oktyabr, 1973.
2. Arif M. C.Cabbarlının dramaturgiyası. Bakı, 1962, 217 s.
3. Axundov M.F. Seçilmiş əsərləri, I cild, Bakı: Elm, 1959, 331 s.
4. A.Nəbiyev. Azərbaycan xalq ədəbiyyatı. I hissə. Bakı, 2002.
5. Ağayev Firudin. Boz atın belində. Bakı: Gənclik, 1982, 282 s.
6. Abdullazadə A. Qatarlar, sərnişinlər, «Ürəklərə yol tapanda», tərtib edən Vaqif Hüseynov. Bakı, 2000, 248 s.
7. Babazadə Baba. XX əsr Azərbaycan ədəbiyyatında bədii tip problemi: Filol.elm.dok. ... dis. avtoref. Bakı, 2004, 56 s.
8. Manaflı X. 1960-70-ci illər nəsrində folklorizm (Anar, Elçin və Ə.Mustafayevin yaradıcılığı əsasında): Filol.elm.dok. ... dis. Bakı, 2007, 172 s.
9. Elçin. Ağ dəvə. Bakı, 2003, 242 s.


## РЕЗЮМЕ


В статье повествуется о прозаических произведениях, созданных на основе фольклорных сюжетов, в азербайджанской литературе, а также дается короткая информация о формах выражения фольклоризма.


## SUMMARY


The article is dealing with examples of plots created on the basis of folk-lore prose in the Azerbaijani literature a well ase giving a short description of forms of folk-lore expression.